# BƏDİİ ƏSƏRLƏRDƏ QLOBAL SİYASİ PROSESLƏR

## Çingiz Abdullayevin «Qanın üç rəngi» romanında Heydər Əliyev obrazı



Gülxani PƏNAH

*(Əvvəli ötən saylarımızda)*

Dronqo başa düşürdü ki, istənilən anda hər şey nəzarətdən çıxa bilər. Oturub sadəcə gözləməyin axırı pis olar. Kəskin iş görmək lazımdır. Hansı yolla burada iştirak edənləri yoxlamaq olar? Onlar hamısı xüsusi buraxılış vəsiqəlidirlər və məlumatlar da ancaq xüsusi xidmət rəisindədir. MTN-nin əsəbi, solğun bənizini görəndə, artıq başa düşürdü ki, qəti əmin idi ki, əsas zərbə burada ola biləcək. Şvernadze öz çıxışını qurtarıb, Azərbaycan prezidenti çıxış edərkən artıq zalda qalmağın əhəmiyyətsiz olduğunu anlayan Dronqo zaldan çıxmağın daha məqsədəuyğun olduğunu yoldaşına bildirdikdə, Leonidov prezidentin çıxışının sonunu gözləməyi məqsədəuyğun bilsə də, qəlbən narahat olan Dronqo prezidentin arxasından şəhərin panaramasına göz yetirir, oradan bütün Bakının, Xəzər dənizinin ətrafının göründüyünü, yaxınlıqda heç bir hündür binanın olmadığını, hansı ki, orada snayper yerləşdirilə bilərdi, görmür və bu qərara gəlir ki, bu mümkün deyil. Onda qalır yalnız partlayışla nəsə törətmək. Amma çox ciddi surətdə qorunan binaya banket başlamazdan əvvəl necə partlayıcı gətirmək olar? Bütün diqqətini bu məsələyə yönəldən Dronqo başa düşdü ki, o son günü bütünlüklə sarayda oturmalı idi. Artıq ona aydındır ki, Qruodis öz adamlarını «Gülüstan»da yerləşdirməyə cəhd edib və buna nail olub. Düşündükləri onu həyəcana gətirir. Dərhal yerindən qalxır, sarayın direktorunu görmək üçün cəld zaldan çıxır və dərhal onu görməli olduğunu bildirdikdə yuxarıdan aşağı Savalyevin ona məlum olmayan bir adamla düşdüyünü görür və məlum olur ki, bu adam Eldar Qasımov mühafizə xidməti rəisinin müavinidir. Savalyev onu Dronqo ilə tanış edərkən, hər şeyi unudan Dronqo dərhal direktoru görməli olduğunu, özü də təcili görməli olduğunu bildirəndə rəis müavini onun zalda olduğunu bildirən katibəni arxasınca göndərir. Bu zaman mühafizə əməkdaşı Kazımı gətirir, onun böyük metrodotel olduğunu deyir və Dronqo ondan işçilərin siyahısını istəyir. Dronqo artıq işin izinə düşmüş olur. Gətirilən siyahıya nəzər yetirən Dronqo qəflətən Kazımdan onun familyasını soruşarkən, direktor Kazımın burada təzə olduğunu, ay yarım əvvəl işə götürüldüyünü deyəndə Dronqo Kazımın üzünə baxır və böyük metrodotelin avtomobil qəzasına düşdüyünü, ona görə də bu axşam Kazımın onu əvəz etdiyini bildirəndə, özünü itirmiş Kazım çıxışa doğru qaçır, tezliklə tutulan Kazım hər şeyi etiraf edir. Silahların balaca banket zalında, aşağıda, bir həftə əvvəl yerləşdirildiyini partlayıcının isə prezidentlərin stolunun üstündə, keramiçeski üç vazalarda yerləşdirildiyini deyir. Bu zaman kabinetə daxil olan DİN, MTN və prezident mühafizə idarəsinin rəisi məsələdən xəbərdar olanda, onlar rusiyalı kollegiya yoldaşlarına bu işlə özləri məşğul olacaqlarını bildirəndə Savelyev və Mamedov otaqdan çıxır. Dronqo oturduğu yerdə qalır. Nazir terroristlərlə özlərinin məşğul olacaqlarını bir daha yerindən tərpənməyən Dronqoya bildirəndə, Eldar Qasımov bu adamın Dronqo olduğunu deyir. Bu adamın Dronqo olduğunu o qədər də inanmayan nazir yenə də bu işin onlara aid olduğunu, kənar adamlar buradan çıxmalı olduğunu bildirəndə, Dronqo hər cür təhlükəni daha yaxşı başa düşdüyündən, otaqdan çıxanda deyir: «prezidentlərin oturduğu stolun üstündəki üç vazada partlayıcı yerləşdirilib, onları oradan götürmək olmaz. Onlar işə nəzarət edir və cinayətkar sizin cəhdinizi görsə vazaları partladacaq, prezidentləri oradan uzaqlaşdırmaq da olmaz. Yenə də elə olacaq. Ona görə də çox diqqətli olun».

Odlu silahları yerində tapmayan orqan işçiləri artıq zalda üç cinayətkarın silahlı olduğunu bilib həyəcan keçirir. Bütün sənədləri diqqətlə yoxladığını, qonaqlar arasında kənar adamların olmadığını iddia edən rəis zalda 500-ə qədər qonağın, səfirin, diplomatın, curnalistin, nazirlərin və deputatların olduğunu, artıq onların yenidən yoxlamağın qeyri - mümkünlüyünü bildirir, çox gərgin, ağır bir vəziyyətin yarandığını görən Eldar Qasımov Dronqo kimi peşəkar bir detektivə olan ehtiyacı duyur və onun nə etməli olduğunu yaxşı bildiyindən məsləhət görür ki, Dronqonun köməyindən istifadə edilsin. Bu zaman Ənvər Xəlilin qəza nəticəsində həlak olduğunu və aeroportun «Lyuftqanze» avio şirkətinə mənsub təyyarəsinin terroristlər tərəfindən girov götürüldüyü xəbərini alan MTN yaranan gərgin vəziyyət içərisində Dronqoyla məsləhətləşməkdən başqa çarəsi qalmır. Dronqo əməliyyata başlayır. O, zalda özünün tanıdığı adamın oturduğuna əmin olduğundan zala ikinci dəfə girməmək üçün, teleoperator çağırılmasını və böyük zalda oturan qonaqların çəkilməsini istəyir. Dronqo terroristlərin planının daha geniş olduğunu ağlına gətirmədiyini anlayır. Onlar özləri ilə nəyisə, kimisə götürəcəklər. Təyyarənin girov götürülməsi də terror aktıyla birbaşa əlaqəli idi.

Dronqo direktorun kabinetində oturub diqqətlə zalın panoramasına baxırdı və birdən o inamla Qruodisin orada olduğunu gördü. DİN sevinsə də, Dronqo ehtiyatlı olmağı vacib bildi. Çünki özünün dediyi kimi, onun sifəti ona xoş gəlməmişdi. Çünki pult onda olsaydı, o heç nəyi əldən verməzdi, burada başqa bir işin olduğunu duyduğundan özü zala getmək qərarına gəlir.

Əsərin sücet xəttində hadisələr iki əsas istiqamətdə verilir. Bir tərəfdə terrorla bağlı dövlət və xarici ölkə kəşfiyyatçılarının, eləcə də terroristlərin fəaliyyəti, digər tərəfdə bağlanan müqavilə ilə bağlı Azərbaycan-Gürcüstan dövlət başçılarının keçirdiyi hisslər, onların xarakterik xüsusiyyətlərinin təsviri əsasdır.

Yazıçı əsərdə Heydər Əliyevin dolğun obrazını yaradır. Baxmayaraq ki, oxucu əsərdə iki prezidentə qarşı hazırlanmış sui-qəsd məsələsini əsərin əsas sucet xətti kimi götürür, bununla belə hadisələrin gedişatında hər iki prezidentin bizə məlum olan xarakterik cəhətlərini çox gözəl, diqqətli şəkildə verir. Qonaqların alqış sədaları altında zala daxil olan hər iki prezident əsas stola yaxınlaşır, onların ətrafında rəsmi şəxslər qərar tutur, bəziləri parlamentin spikerinin stoluna diqqət yetirir, onların həmin anda spikerin öz iş otağında oturduğunu xəyala belə gətirə bilməməsi təsvir edilir. Prezident də, onun sol tərəfində oturmuş xarici işlər naziri də bugünkü imzalanmış müqavilələrdən razı idi. Respublikaların - qonşu ölkələrin bir-birinə oxşar taleləri, ölkə liderlərinin tarixi manevrləri, onların strateci əməkdaşlıqlarının imzalanması, bundan qonşu ölkənin prezidenti Şvernadzenin daha çox razı qalması, indi Bakı neftinin Gürcüstana keçəcəyi, artıq respublikada stabilliyin möhkəmlənəcəyi, enerci çatışmamazlığının qarşısının alınacağı, müqavilənin imzalan-masından doğan ruh yüksəkliyi təsvir edilməklə yanaşı, yazıçı Gürcüstanın 93-cü ilin, soyuq qışına diqqəti cəlb edir. Ölkənin qarşılaşdığı ağır sosioloci vəziyyəti yada salır və bağlanan bu yeni müqavilənin gələcək qışda ölkənin sosial -iqtisadi təminatının yaxşılaşdıracağına kömək edəcəyini əsərdə verməklə bərabər, bağlanan bu müqavilənin sosial-iqtisadi, siyasi sahədə müsbət dəyişikliklərə yol açacağını, bu ölkələr üçün böyük tarixi əhəmiyyətini də göstərir.



Banket ənənəvi olaraq dövlət başçısının çıxışı ilə başlandı. Birinci söz ölkənin qonağına verildi, milli münasibətlərin kəskinləşdiyi dövrlərdən fərqli olaraq hər iki prezident öz doğma dilində danışır, onların nitqini tərcüməçilər tərcümə edir. Yazıçı burada prezidentlərin öz dilində çıxışlarını, onların çıxışlarının tərcüməsini verməklə yanaşı çox incə məqamları da verməklə, keçirilən qonaqlığın, banketin oxucu təsəvvüründə təbii mənzərəsini yaratmağa çalışır, bizcə buna nail olur da. Məclisdə iştirak edənlərin bəziləri iki lideri və onların tərcüməçilərini başa düşmür, MDB dövlətlərinin, eləcə də digər xarici ölkənin səfirləri rus dilini yaxşı bilirdilər. Kimisi türk dilini bilirdi, məsələn, ingilis səfiri Tomas Yanq müstəqil Azərbaycanca başa düşməyi bacarırdı. Rus dilini yaxşı bilən fransız səfiri isə demək olar ki, heç nə başa düşməsə də, ətrafındakıların reaksiyası əsasında deyilənləri başa düşürdü.

Bu dövrdə Qafqazdan çıxmış iki adamın-Heydər Əliyevlə Şvernadzenin siyasi fəaliyyəti romanda daha qabarıq təsvirini tapır. Siyasi detektiv əsərin sücetinin əsasında məhz bu iki böyük siyasətçiyə qarşı hazırlanan terror aktı dursa da yazıçı böyük manevrlər edərək dövrün bütün siyasi, iqtisadi məsələlərinə toxunur, bu iki ölkənin daxili və xarici siyasətini qələmə alır, ziddiyyətlərlə dolu illərin gərgin səhnələrini yaradır, dünyanın diqqət mərkəzində olan böyük bir layihənin baş tutmaması üçün maraqlı olan qüvvələrin fəaliyyətini qələmə alır, o dövr üçün qaranlıq qalacaq məsələ qoymur, ən kiçik təfərrüatlarına qədər əsərin sücet xəttində hər şeyi oturdur, oxucu üçün bir-birindən maraqlı hadisələri «yerləşdirir», oxucu bu terror aktının həyəcanını yaşamaqla yanaşı geniş siyasi məsələlərlə də tanış olur. Azərbaycan-Gürcüstan-Rusiya-Qərb-diqqətində olan BAKI-TBİLİSİ-UEYHAN neft kəmərinin müqaviləsinin imzalanması sahəsində qarşıya çıxan çətinliklər, bu çətinliklərin öhdəsindən gələ bilmək iqtidarında olan iki böyük siyasətçinin həyatı, siyasi fəaliyyəti ilə yanaşı böyük imperiyanın dağılması səbəbləri, Siyasi Büroda oturan qüvvələrin fəaliyyəti, siyasəti, onların içində iki Qafqazlının dərin siyasi görüşləri, onların hər ikisinin bacarıqlarından yararlanmaqla mənsub olduqları dövlətin başında ikinci dəfə oturmalı olduqda əldə etdikləri nailiyyətləri yazıçı daha ətraflı şəkildə verir.

Heydər Əliyev kimi Şvernadze də hakimiyyətə ikinci dəfə gəlir. Yazıçı Şvernadzenin siyasi fəaliyyətini təsvir edir. Onun Moskvaya dəvət olunduğu illərə diqqəti cəlb edir. 85-ci ildə hakimiyyətə gələn Çernenkonu Brecnev dövrünün «dinozavr»larından biri kimi təqdim edir. Yazıçı siyasi liderlər kimi tanıdığımız bu adamlara-bu böyük dövləti dizi üstə çökdürənlərə nifrətini gizlətmir. Çernenkonun ölümündən sonra hakimiyyətə gəlmək istəyən Qrişin və Romanovu qabaqlayıb Qromıkonun köməyi ilə hakimiyyətə gələn Qorbaçovun Qromıkonun yerinə E.Şvernadzeni irəli çəkmə siyasəti yada salınır.

Yazıçı əsərdə Əliyev-Qorbaçov münasibətlərini hər iki siyasətçinin həyat tarixçəsində «ən anlaşılmaz səhifə» adlandırır. Onların hər ikisi Andropovun «yetirməsi», onun ardıcıl tərəfdarları, onun tərəfindən irəli çəkilmişlərdir. Əliyevi Andropov ideal təsərrüfat rəhbəri seçməkdə səhv etməsə də ideal partiya lideri bildiyi Qorbaçovda böyük səhvə yol verir. Heydər Əliyevə «şübhə» ilə yanaşan, əslində onun qabiliyyətinə həsəd aparan, onun yüksək siyasi səviyyəsindən qorxan Qorbaçov H.Əliyevə qısqanclıq hissi ilə yanaşır. İşini yaxşı bilmir. Siyasətdə güclənən müsəlman amilinin əhəmiyyətini Andropov başa düşsə də, Qorbaçov «bunu dərhal dərk etmir və həyatın gerçəklikləri ilə hesablaşmaq istəmir, kadr məsələlərinin həllinə «volyuntaristcəsinə» yanaşır ki, yazıçı bunun Alma-Ata hadisələrində, sonra isə Qarabağda, Fərqanədə, Osetiyada qanlı iğtişaşlara səbəb olduğunu, bütün ölkənin dağılmasına gətirib çıxardığını əsərdə olduğu kimi təsvir edir. «Hələ 91-ci ilin avqustunda, yəni ölkə faktiki olaraq dağılmaq ərəfəsində olarkən Qorbaçov Andropovun ideyalarını bərpa etməyi qərara alır və ölkənin baş naziri vəzifəsini Qazaxıstan lideri Nazarbayevə təklif edir»-deyir və bildirir ki, «ancaq bu, artıq gec idi».

*(Davamı var)*